## 2023 – Heydər Əliyev İli

# Ümummilli lider mədəniyyəti xalqın iftixar mənbəyi hesab edirdi



**Ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan öz inkişafında yeni bir dövrün əsasını qoydu. Bütün sahələrin, o cümlədən, milli mədəniyyətimizin də dirçəldilməsi üçün ölkədə möhkəm zəmin yarandı.**

Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan sonra Azərbaycanda mədəniyyətə dövlət qayğısı daha da gücləndi. Ən əsası bu idi ki, Mədəniyyət Nazirliyində ölkənin mədəniyyət siyasəti müəyyənləşdi. Hətta mədəniyyət siyasəti şöbəsi də açıldı.

Dahi şəxsiyyətin siyasi hakimiyyətə qayıdışı elə bir dövrdə oldu ki, ölkədə mədəniyyətə diqqət tamamilə zəifləmiş, mədəniyyət abidələri baxımsız vəziyyətə düşmüş, incəsənət xadimlərinin bir qismi ölkəni tərk etmişdi. Teatrlarımız, kino nümayişi müəssisələrimiz tamamilə fəaliyyətsiz hala düşmüşdü. AXC – Müsavat cütlüyü milli mədəniyyətimizin inkişafına çox ciddi təhlükə yaratmışdı. Amma Heydər Əliyev vəziyyəti tamamilə dəyişdi. Azərbaycan musiqisi, teatrı, rəssamlığı və digər incəsənət sahələri tədricən dirçəlməyə başladı. Biz bütün bunların şahidiyik. Musiqi sahəsində 24 bəstəkara və musiqişünasa Prezident təqaüdü verildi. Onların bir qismi müxtəlif ordenlərə, digər mükafatlara layiq görüldü.

Ümummilli liderimiz Azərbaycan xalqının milli mədəniyyətinə, tarixi qaynaqlarına həmişə böyük diqqətlə yanaşmış, millətin qan yaddaşına hopmuş tarixi şəxsiyyətlərimizin xatirəsinin yaşadılması üçün öz qayğısını əsirgəməmişdir.

Heydər Əliyev musiqi, rəssamlıq, balet, teatr, kino sahəsində uğur qazanan istedadların ölkədən kənarda tanınması üçün məqsədyönlü tədbirlər həyata keçirmişdir. Hələ SSRİ dövründə Azərbaycan professional musiqi sənətinin baniləri Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin, SSRİ Xalq artistləri, professional vokal sənətimizin banisi Bülbülün, Qara Qarayevin, Niyazinin, Fikrət Əmirovun, Xalq şairi Səməd Vurğunun, Xalq yazıçısı Mirzə İbrahimovun yubileylərinin təkcə Bakıda deyil, sovet ittifaqının digər şəhərlərində də təntənə ilə keçirilməsinə nail olmuşdur. Bununla yanaşı, dramaturgiyamızın banisi Mirzə Fətəli Axundovun, böyük dramaturq Cəfər Cabbarlının, SSRİ Xalq artistləri Şövkət Məmmədovanın, Mirzağa Əliyevin və başqa sənətkarlarımızın, eləcə də Azərbaycan mədəniyyətinin inkişafında xüsusi yer tutan ayrı-ayrı sənət məbədlərinin – Akademik Milli Dram Teatrının, Naxçıvan Dövlət Dram Teatrının, Azərbaycan Dövlət Rus Dram Teatrının, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin yubileyləri respublikamızda təntənə ilə qeyd olunmuşdur.

Ulu öndərin ədəbiyyata, incəsənətə hədsiz sevgisi ölkəmizdə bu sahələrin inkişafına böyük təkan vermişdi. Hələ sovetlər dövründə məhz bu böyük dövlət xadiminin səyi ilə nə qədər yazıçı, şair, bəstəkar, rəssam SSRİ-nin ən yüksək fəxri adlarına – SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüşlər. Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm və başqaları Sosialist Əməyi Qəhrəmanı fəxri adı ilə təltif olunmuşlar.

Çox sevinirəm ki, ulu öndərlə bağlı xatirələr qəlbimdə yaşayır. Mənim yaradıcılığım onun ölkəmizə rəhbərlik etdiyi illərdən başlayıb. Təxminən, 1969-1970 ci illərdən. Biz – mən və bacım, SSRİ xalq artisti Fidan Qasımova səhnəyə gələndə hələ çox gənc idik. Nə yaxşı ki, Heydər Əliyev bizim yaradıcılığımızı və uğurlarımızı zamanında izlədi və qiymətləndirdi. Ulu öndər mədəniyyət sahəsində çalışan sənətkarlara, istər bəstəkar, istər musiqiçi, istərsə də yazıçı olsun, hamısına böyük dəyər verərdi. Hər kəsin yaradıcılığını diqqətlə izləyirdi. Bizim mədəniyyətimizi, musiqi tariximizi çox dərindən bilirdi. Onunla söhbət etmək, çıxışlarını dinləmək hər bir azərbaycanlı üçün böyük bir məktəb idi. Ələlxsus da biz bacılar üçün. Biz çox qürur hissi keçiririk ki, ulu öndərlə ünsiyyətdə olmuşuq, onu yaxından görüb, ailəsini tanımışıq.

Bizə hər zaman “qızlar” deyə müraciət edərdi. Rəsmi xarici səfərlərə gedərkən o mütləq ziyalılardan ibarət kiçik bir nümayəndə heyətini də özü ilə aparardı. Onların içərisində biz də olardıq. Elə bir konsert proqramımız yox idi ki, özü şəxsən gəlib bizi izləyib, alqışlamasın. Xarici səfərlərdə olarkən bizimlə yaxından maraqlanırdı. Soruşurdu ki, oteldən razısınızmı? Hələ Moskvada çalışdığı illərdə, çox nadir hallarda konsertlərimizə özü gələ bilməsə də, mütləq ailə üzvlərini göndərərdi. Bu, ilk növbədə, bizə böyük hörmət və dəstək idi.

Heydər Əliyev Azərbaycan incəsənəti ilə, musiqisi ilə qürur duyurdu. Bəzən xüsusi görüşlərində, şam yeməklərində bizimlə çox gözəl, səmimi, maraqlı söhbətlər apardı. Azərbaycan bəstəkarlarının, xüsusən Tofiq Quliyev, Cahangir Cahangirov, Səid Rüstəmov, Rauf Hacıyevin əsərlərini çox sevərdi və hətta bizimlə birgə oxuyardı.. Yadımdan heç çıxmaz, 1996-cı ildə Fidan xanım və mən onunla birlikdə şam yeməyində görüşmüşdük. Üçümüz birlikdə Niyazinin “Arzu” romansını ifa etmişdik. İfadan sonra bir az kədərlənib, kövrəlmişdi. Daha sonra öz həyatı, ömür-gün yoldaşı Zərifə xanım haqqında bizə ürək dolusu danışdı. Ürəyini bizə açdı. Dedi ki, o qədər məşğulam, sevdiyim ailəmi, yaxınlarımı heç görməyə vaxt tapmıram. Onu da anlamaq olardı, çünki böyük bir ölkəni idarə etmək heç də asan deyildi.

Heydər Əliyevin yaşadığı şərəfli həyat hər birimizə bir örnəkdir. Hamı deyirdi ki, onun sizə xüsusi münasibəti, hörməti var. Bəli, tez- tez belə deyirdilər. Çünki biz onunla hansı xarici səfərdə olurduqsa, ilk növbədə, fikirləşirdik ki, hansı ölkəni təmsil edirik. Prezidentimizin nə dərəcədə yüksək şəxsiyyət olduğunu bilirdik və bu nöqteyi nəzərdən mədəniyyətimizin səviyyəsini yüksək tuturduq.

Ulu öndərin sayəsində mədəniyyətimizin çiçəklənməsi, zənginləşməsi və yeniləşməsi prosesi get-gedə daha böyük vüsət alırdı. Bu yüksəlişi gözəl diyarımızda yaşayan bütün vətənsevər insanlar duyur, görür, alqışlayır və dəstəkləyirdilər.

Heydər Əliyev maddi və mənəvi dəyərlərimizin əsl xilaskarı idi. O, mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. Elə ona görə də Heydər Əliyev mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün nəinki mümkün olanları, hətta mümkün olmayanları da edirdi.

Xarici ölkələrlə mədəni əlaqələrimiz getdikcə genişləndi. Azərbaycan filmləri beynəlxalq festivallarda göstərildi, rəssamlarımızın əsərləri dünyanın məşhur sərgi salonlarında nümayiş etdirildi.

Artıq mədəniyyət və incəsənət xadimlərində daxili bir inam yaranır və ölkəmizdə mədəniyyət sahəsində aparılan davamlı islahat onları daha ciddi yaradıcılıq axtarışlarına sövq edirdi.

Azərbaycan mədəniyyəti bu böyük şəxsiyyətin sayəsində dünya şöhrəti qazanmış, xalqımızı ləyaqətlə təmsil etmişdir. Ulu öndərin mədəniyyət sahəsindəki tarixi xidmətləri xalqımız tərəfindən heç zaman unudulmur. Biz mədəniyyət və incəsənət xadimləri milli mədəniyyətimizin qazandığı nailiyyətlərə görə həmişə ulu öndərə minnətdarıq.

Ulu öndərin mədəniyyət sahəsindəki islahatları bu böyük dövlət xadiminin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilir. Möhtərəm Prezidentimiz xalqın milli xüsusiyyətlərinin qorunub saxlanmasında ədəbiyyatın, mədəniyyətin böyük rolunu xüsusi vurğulayaraq demişdir: “Azərbaycan xalqının, bizim hamımızın xüsusiyyətlərini qoruyub saxlamaq üçün, əlbəttə ki, ədəbiyyatımız, mədəniyyətimizin böyük rolu olmuşdur. Xalqın iftixar mənbəyi olan mədəniyyətin çiçəklənməsi, yeniləşməsi prosesi get-gedə daha böyük vüsət alır”.

Ümumiyyətlə, mədəniyyət sahəsində Heydər Əliyev ideyaları bu gün də uğurla həyata keçirilir. Bu işdə Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişafına göstərdiyi diqqət xüsusi qeyd edilməlidir. Bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlər xüsusilə təqdirəlayiqdir.

**Xuraman QASIMOVA,**
**Xalq artisti, professor**